# ÜZEYİR HACIBƏYOVUN ANADAN OLMASININ 110 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1995-ci il sentyabr ayının 18-də görkəmli Azərbaycan bəstəkarı, Azərbaycan milli operasının banisi, istedadlı musiqişünas-alim, publisist və pedaqoq Üzeyir Hacıbəyovun anadan olmasının 110 ili tamam olur.

Azərbaycanın musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq Üzeyir Hacıbəyovun anadan olmasının 110 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Elçin **Əfəndiyev** — Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsi sədrinin müavinləri**

Tofiq **Quliyev** — Azərbaycan Bəstəkarlar İttifaqının sədri

Anar **Rzayev** — Azərbaycan Yazıçılar Birliyinik sədri

**Təşkilat Komitəsinin üzvləri**

Rəfael **Allahverdiyev** — Bakı şəhəri İcra hakimiyyətinin başçısı

Həsən **Həsənov** — Azərbaycan Respublikasının xarici işlər naziri

Fatma **Abdullazadə** — Azərbaycan Respublikası Prezident Aparatının humanitar siyasət şöbəsinin müdiri

Polad **Bülbüloğlu** — Azərbaycan Respublikasının mədəniyyət naziri

Lidiya **Rəsulova** — Azərbaycan Respublikasının təhsil naziri

Sabir **Rüstəmxanlı** — Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Eldar **Salayev** — Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti

Babək **Məmmədov** — Azərbaycan Dövlət Teleradio Verilişləri: Şirkətinin sədri

Nazim **İbrahimov** — «Azərbaycan» nəşriyyatının baş direktoru

Fərhad **Bədəlbəyli** — Azərbaycan Dövlət Musiqi Akademiyasının rektoru

Bəkir **Nəbiyev** — Azərbaycan Respublikası Elmlər Akademiyasının Ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi

2. Bu sərəncamdan irəli gələn məsələlərin həlli Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV.**

Bakı şəhəri, 1 sentyabr 1995-ci il.
№ 210.